UOT 82-97

**Rüxsarə Məmmədova**
*elmi işçi,*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
mrukhsara@email.ru

# FİQHİN TƏSNİFATI VƏ FAZİL MİQDADIN "KƏNZÜL-İRFAN" ƏSƏRİ

**Açar sözlər:** *fiqh, ibadətlər , əqdlər, iqalar*
**Ключевые слова:** *фикх, поклонение, агды, игалы*
**Key words:** *fikh, ibadat, agdi, igali*

İslam cəmiyyətinin həyat tərzini formalaşdıran fiqhin əsas və əhəmiyyətli məqsədi insanları zərərli əməllərdən uzaqlaşdırmaq və onları faydalı məsləhətlərlə təmin etməkdir. Fiqh ilahi qaynaqdır və onun həqiqi qanunvericisi Adil olan Allahdır. Qulların səlahiyyəti yalnız ilahi qanunu (hökm) araşdırıb tapmaq və icra etməkdir. Qeyd etmək vacibdir ki, fiqhin əhatə dairəsi çox genişdir. Lakin islam maarifi, eləcə də islam əxlaq və tərbiyəsi fiqhin əhatəsindən xaricdir (2, 27).

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, hicrətin I və II əsrlərində yazılan kitablar bütün mövzuları deyil, bir və ya bir-neçə mövzunu əhatə edirdi. Müasir dövrümüzdə hüququn hər bir sahəsinə aid yazılan kitablar kimi: "Əmək məcəlləsi", "Mülki məcəllə", "Ailə məcəlləsi" və s. Sonrakı dövrlərdə fiqhə həsr olunan kitablarda fiqhin bütün mövzuları əks olunuraq, "kitab" adı altında qeyd edilirdi: Təharət kitabı, namaz kitabı, zəkat kitabı, xüms kitabı, həcc kitabı, cihad kitabı, şəhadət kitabı, nikah kitabı, Əmr bil – məruf və nəhy anil – munkər (yaxşılığa dəvət, pislikdən çəkindirmə) kitabı və s. ( 1, 260).

Mürtəza Mütəhərri "İslam elmləri ilə tanışlıq" adlı kitabında məşhur fəqihlərin fiqhlə bağlı təsnifatını araşdıraraq qeyd etmişdir ki, Mühəqqiq Hilli özünün "Şəraye" kitabında və Şəhid-Əvvəl "Qəvaid" kitabında fiqhin təsnıfatlar barəsində azacıq izahat vermişlər(1, 329). Maraqlı burasıdır ki, "Şəraye" kitabının mahir şərhçiləri olmuş Şəhid-Sani "Məsalik" əsərində, nəvəsi Seyid Məhəmməd özünün "Mədarik"əsərində, Şeyx Məhəmmədhəsən Nəcəfi isə "Cəvahir" adlı kitabında Mühəqqiqin fiqh bölümləri ilə bağlı heç bir məlumat verməmişdilər.

İmamiyyə fəqihləri tərəfindən yazılan fiqh kitabları: "İbadətlər", "Əqdlər", "İqalar" və "Hökmlər" olmaq üzrə dörd hissəyə bölünmüşdür. Bu təsnifatı belə izah edirlər: "Əgər namaz, oruc, həcc kimi fiqhi bir məsələdirsə o ibadətlər bölmünə, miras, qisas və yeməklər kimi məsələlərə aiddirsə ehkam qisminə, müqavilələr başlığı altında yer alırsa hüquqi təsərrüflər və nikah qisminə, iqalar başlığı altında isə boşama və kölə azad etmə kimi mövzulara daxildir.

Muhəqqiq Hilli bu bölgüdə bütün fiqhi 48 baba ayırıb, 10 babı "ibadətlər", 15 babı "əqdlər", 11 babı "iqalar", 12 babı isə "hökmlər"adlandırmışdır(1, 330).

Fiqh kitablarında araşdırma mövzusu olan başlıca ibadətlər belədir:

1. Kitabut - təharət: İbadətə ön hazırlıq mahiyyəti daşıyan bu cür təmizlik növü, dini cəhətdən nəcis sayılan maddələr, təmizlənmə yolları, dəstəmaz, qüsl, təyəmmüm, qadınlara məxsus hallar bu bölümdə öz əksini tapır.
2. Kitəbus- səlat (namaz kitabı). Təməl dini ibadətlərdən olan namaz bütün növləri ilə bu fəsildə yer tutur. Namazın şərtləri, fərzləri, namazı pozan şeylər, səfər və cənazə namazı burada araşdırılır.

3.“Kitəbuz – zəkat” (zəkat kitabı). Zəkat vergiyə bənzər bir ödənişdir və doqquz şeyə düşür: qızıl, gümüş, buğda, arpa, xurma, kişmiş, inək, qoyun və dəvə. Fiqhdə bu şeylərə zəkatın şərtləri, zəkatın miqdarı və onun sərf edilməsi barədə danışır. Quranda zəkat daha çox namazla yanaşı qeyd edilir və yalnız sərf olunduğu yerlər açıqlanmışdır.
4. Kitəbul – xüms (xüms kitabı) Xümsdə zəkat kimi vergiyə bənzər bir ödənişdir. Xüms 1/5–i deməkdir. Mədənlər, xəzinələr, harama qarışmış mallar (haram malın miqdarını müəyyən etmək və sahibini tapmaq mümkün olmadıqda), zimmi kafirin müsəlmandan aldığı yer, dalğıclıq yolu ilə əldə edilənlər və illik gəlirin artıq qalan miqdarının da xümsü verilməlidir. Xüms ölkənin büdcəsinin mühüm bir hissəsini təmin edə biləcək irihəcmli bir büdcədir.
5. Kitəbus – saum (oruc kitabı) “Saum” oruc deməkdir. Ramazan orucu başda olmaqla oruca dair hökmlər bu başlıq altında tədqiq olunur. Ramazan ayının başlanğıc və sonunun təsbiti, ramazan gecələrinin əhyası və digər aylarda tutulan müstəhəb oruclar bu başlıqda yer alır.
6. Kitəbul etikaf (Etikaf kitabı) Etikafın lüğəti mənası müəyyən bir yerdə qalmaq deməkdir. Fiqhi terminalogiyada isə insanın 3 gün və ya daha artıq məsciddə qalıb çölə çıxmadığı və hər 3 günü oruc tutduğu bir ibadət növünə deyilir. Etikaf özlüyündə vacib deyil müstəhəbdır. Lakin insan onu başladıqdan və 2 gün keçdikdən sonra 3-cü gün vacib olur. Kiçik məsciddə etikaf etmək olmaz. Əziz Peyğəmbirimiz (s) Ramazan ayının son on günündə etikaf edərdi.
7. Kitəbul – həcc (həcc kitabı). Həcc Məkkə və Məkkəətrafı bölgələrdə hacılar vasitəsilə yerinə yetirilən və adətən, ümrə ilə birlikdə olan məşhur əməldir. Həccin əməlləri aşağıdakılardan ibarətdir.
Məkkədə ehram bağlamaq Ərəfat adlı yerdə dayanmaq, Məşər adlı yerdə gecə qalmaq, Əqəbə cəmərəsini (böyük şeytanı) daşlamaq, qurban kəsmək, həlq (saçın qırxılması) və ya təqsir etmək (saç və ya dırnağın qısaldılması), təvaf etmək, təvaf namazı qılmaq, Səfa və Mərvə arasında səy etmək, Nisa təvafı, Nisa təvafının namazı, cəmərələri daşlamaq, Minada gecələmək.
8. Kitəbul – ümrə (ümrə kitabı). Ümrə də bir növ kiçik həcdir. Hacılara əvvəl ümrəni yerinə yetirmələri daha sonra həcc etmələri vacibdir. Ümrənin əməlləri aşağıdakılardır:
Miqat adlanan yerlərdən birində ehram bağlamaq, Kəbə evinin ətrafında təvaf etmək, təvaf namazı qılmaq, Səfa və Mərvə arasında səy etmək, təqsir etmək......
9. “Kitəbul – cihad” (cihad kitabı). Bu kitabda islami müharibələrdən bəhs edilir. Cihad iki növdür: hücum xarakterli və müdafiə xarakterli. Hücum xarakterli cihad yalnız həzrəti Peyğəmbərimiz (s) və ya məsum bir imamın rəhbərliyi altında həyata keçirilə bilər. Belə bir cihad yalnız kişilərə vacibdir. Müdafiə xarakterli cihad isə bütün dövlərdə kişi və qadın olmaqla bütün şəxslərə vacibdir.
Fiqhdə cihadın hökmləri, zimmənin hökmləri, yəni qeyri – müsəlman İslam dövlətinə vətəndaşlığa qəbul etmənin şərtləri, eləcə də İslam dövləti ilə qeyri – İslam dövləti arasındakı sülh barəsində geniş surətdə bəhs edilir.
İbadətlər babı burada sona yetir və növbəti növ əqdlərdir (müqavilələrdir). Bu 15 kitabdan ibarətdir:
1. Kitəbut – ticarət (ticarət kitabı) – alqı-satqı
2. Kitəbur – rəhn (girov kitabı) – girov qoymağın və götürməyin hökmləri
3. Kitəbul – müfəlləs (müflis kitabı) – iflasa uğramış şəxsin hökmləri
4. Kitəbul – həcr (əmlakdan istifadə haqqından məhrum edilmə kitabı)
5. Kitəbuz – ziman (zaminlik kitabı)
6. Kitəbus – sulh (sülh kitabı) – Bu kitabda qarşılıqlı razılaşmanın hökmləri açıqlanır. Burada sülh dedikdə, cihad kitabında açıqlanan “sülh” nəzərdə tutulmur.
7. Kitəbuş – şirkət (şəriklik, ortaqlıq kitabı)

8. Kitəbul – muzaribə (əqdlə başverən şərikliyin bir növüdür) sərmayə ilə işin şərikliyidir
9. Kitəbul – muzariə vəl – musaqat (müzariə və musaqat kitabı) yəni müzaribə kimi hər 2-si iş ilə sərmayə şərik olur. Fərqləri budur ki, müzaribə mənfəət və ticarət üçün olan iş və sərmayə şərikiyidir, müzariə isə əkinçilik üçün olan iş və sərmayə şərikliyidir. Musaqat isə bağbanlıq sahəsində olan iş və sərmayə şərikliyidir.
10. Kitəbul – vədiə (vədiə kitabı) Vədiə əmanət, yəni əmlakı qorumaq, nəzarət etmək üçün bir nəfərə tapşırmaq.
11. Kitəbul – ariyə (birovuz kitabı)
12. Kitəbul – icarə (icarə kitabı)
13. Kitəbul – vəkalət (vəkalət kitabı)
14. Kitəbul – vəsiyyət (vəsiyyət kitabı) İnsanın öz əmlak və ya vəlisi olduğu azyaşlı uşaqları ilə bağlı ölümündən sonra üçün verdiyi tapşırıqlara aiddir.
15. Kitəbun – nikah (nikah kitabı) – evlilik müqaviləsi

Üçüncü növ isə iqalardır (birtərəfli müqavilələr) və on bir kitabdan ibarətdir: 1."Kitabut-talaq"(talaq kitabı). 2."Kitabul-xul vəl-mubarat". 3."Kitabuz-zihar". 4."Kitabul-ila". 5."Kitabul-lian". 6."Kitabul-itq" (qulların azad edilməsi). 7. "Kitabut-tədbir vəl-mukatəbə vəl-istilad". 8. "Kitabul-iqrar".
9."Kitabul-cualə"(icarə).10."Kitabul-əyman"(andlar).11."Kitabun-nəzr"(nəzir kitabı) (2, 25).

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar institutunda mühafizə edilən fiqhə dair yazılan Fazil Miqdad Suyuri əl-Hillinin "Kənzul-irfan fi fiqhil-Quran" əsərinin beş əlyazması mövcuddur. Bu əlyazmaları tədqiq edərkən görürük ki, bu bölgüdən çox da kənara çıxmayıb. Amma katiblər tərəfindən köçürülən kitablar bir-birindən az da olsa fərqlənir. Təharət kitabı, namaz kitabı, zəkat kitabı, xüms kitabı, həcc kitabı, cihad kitabı, şəhadət kitabı, nikah kitabı, əmr bil – məruf və nəhy anil – munkər (yaxşılığa dəvət, pislikdən çəkindirmə) kitabı (3, 210).

Şeyx Fazil Miqdad fiqh kitabını yazarkən başqa fəqihlərdən fərqli olaraq kəlmələri qrammatik cəhətdən izah edərək yazmışdır.

## Ədəbiyyat:

1. Mütəhərri M. İslam elmləri ilə tanışlıq. – Bakı,2004. – 400 s.
2. Camalov M. İslam hüququ. - Bakı, 2013. - 520 s.
3. İslam Ansiklopedisi. C.13. – İstanbul,1993. – 420 s.
4. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər. - Bakı, 1997. – 198 s.
5. Hayreddin Karaman. Islam hukuk tarihi. – İstanbul, 1989. – 406 s.

***Рухсара Мамедова***

## ВОПРОСЫ ФИКХА В ПРОИЗВЕДЕНИИ ФАЗИЛЬ МИГДАДА «КАНЗУЛЬ – ИРФАН»

В статье поясняется, что фикх включает в себя 4 раздела - «ибадаты», «агды», «игалы» и «хокмы». Это разъясняется следующим образом: к «ибадатам» относятся намаз (молебствие), «орудж» (пост), «хадж» (поломничество), «хокмы» включают в себя вопросы наследства, мести и правильное питание по шариату. «агды» - юридические проблемы и вопросы бракосочетания, к «аглам» относятся вопросы развода и освобождения рабов.

***Rukhsara Mammadova***

## FIKH IN THE WORK OF PHAZIL MIQDAD “KANZUL – IRFAN”

The article states, that fikh includes 4 sections: “ibadati”, “agdi”, “igali” and “hokmi”. “Ibadat” includes namaz, “oruj” an “hajj”, “Hokm” is the inheritance issues. “Agdı” includes lawyer’s problems and “aglı” the problemsof divorce.